# Azərbaycan nümayəndə heyəti "B20" və "L20" toplantısında təmsil olunmuşdur

**Türkiyə Respublikasının Antalya şəhərində "G20" dövlət və hökumət başçılarının sammiti çərçivəsində "B20" (Biznes məsələləri üzrə iyirmilik) qrupunun və "L20" (Əmək məsələləri üzrə iyirmilik) qrupunun toplantısında Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının nümayəndələri də iştirak etmişdilər.**



Türkiyənin sədrliyi çərçivəsində cari ilin "Böyük İyirmilik"in 15-16 noyabr tarixində Antalya şəhərində "G20" dövlət və hökumət başçılarının sammiti keçirilmişdir. Sammitdə Azərbaycan nümayəndə heyəti yüksək səviyyədə təmsil olunmuşdur.

"G20" inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrlə qlobal iqtisadiyyat məsələlərinin birgə müzakirəsi üçün formalaşıb. "G20" ilk əvvəl sadəcə "yeddilik" idi, Rusiyanın gəlişi ilə "səkkizlik"ə çevrilib. Daha sonra Hindistan, Braziliya və Çin kimi iri dövlətlərin qoşulması ilə say tərkibi artıb. Dünyada məhsul istehsalının, beynəlxalq ticarətin əsas hissəsi bu ölkələrin payına düşür. Belə ki, "Böyük İyirmilik"ə daxil olan ölkələr dünya sənayesinin 85 faizini, ümumi daxili məhsulun 90 faizini, dünya ticarətinin 80 faizini təmsil edirlər. Dünya əhalisinin üçdəiki hissəsi "Böyük İyirmilik"in üzvü olan ABŞ, Böyük Britaniya, Türkiyə, Yaponiya, Kanada, Almaniya, Fransa, İtaliya, Rusiya, Avstraliya, Braziliya, Hindistan, Çin, İndoneziya, Meksika, Səudiyyə Ərəbistanı, Cənubi Afrika Respublikası, Argentina, Koreya Respublikası və Avropa İttifaqı ərazisində yaşayırlar.

Sammitin proqramına əsasən rəsmi açılışdan əvvəl "G20" dövlətlərinin biznes nümayəndələrindən ibarət "B20" (Biznes-20) və həmkarlar ittifaqları nümayəndələrindən ibarət "L20" (Əmək-20) fəaliyyət qrupları ilə görüşlər keçirilmişdir.

Həmin görüşlərdə ölkəmizi Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Prezidenti Məmməd Musayev təmsil etmişdir.

Noyabrın 15-də "Böyük İyirmilik" ölkələri liderlərinin sammiti öz işinə başladı. Sammit çərçivəsində yeddi böyük toplantı keçirildi. Sayca onuncu dəfə keçirilən bu sammitdə Azərbaycan xüsusi qonaq statusunda təmsil olunmuşdur. Türkiyənin fəxri qonaq qismində Azərbaycanı seçməsi ölkələrimiz arasındakı möhkəm qarşılıqlı əlaqələrin bir daha təsdiqi olmaqla yanaşı, Azərbaycanın iqtisadi potensialına verilən diqqətin göstəricisidir.

"B20" plenar iclasına sədrlik edən Türkiyə Palatalar və Birjalar Birliyinin rəhbəri Rifat Hisarcıklıoğlu giriş sözü ilə qonaqları salamlayaraq son bir il ərzində "B20" qrupunun 4 qitədə 12 vacib toplantılar keçirdiyini bildirdi.

"B20" Zirvə Toplantısında TOBB Prezidenti və "B20" sədri cənab Rifat Hisarçıklıoğlu, habelə Türkiyə Baş nazirinin müavini cənab Cevdet Yılmaz çıxış edərək Türkiyə tərəfindən sədrliyin uğurla başa çatması və bu il ərzində keçirilən tədbirlərdə qəbul edilən tövsiyyələrin təkmilləşdirilərək "G20" liderlərinə ötürülməsi barədə məlumat verdilər.

Qeyd olundu ki, Türkiyənin "B20"yə sədrliyi müddətində dünyada iqtisadi inkişaf proseslərini sürətləndirmək üçün müvafiq maliyyə alətləri yaradılmış və hazırda inkişaf etməkdə olan ölkələrdə resursların səmərəli şəkildə bölüşdürülməsinə imkan verən dövlət və özəl investisiyaların təşviqi proqramlarının müzakirəsi "B20" siyasətinin tərkib hissəsi olaraq qalır.

"G20" dövlət və hökumət başçılarının sammiti çərçivəsində "B20" (Biznes məsələləri üzrə iyirmilik) qrupunun toplantısında iştirak edən Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev keçirdiyi ayrı-ayrı görüşlərdə Azərbaycanda müasir milli sahibkarlığın inkişafı barədə ətraflı məlumat vermişdir.

Azərbaycan Respublikasının post-sovet ölkələri arasında iqtisadiyyatın keçid dövrünü inamla başa vuran və qısa müddətdə dinamik inkişaf edərək regional liderə çevrilmiş dövlət olması faktı artıq nüfuzlu beynəlxalq təşkilatlar, aparıcı maliyyə institutları və reytinq agentlikləri tərəfindən təsdiq edilmişdir. Ölkə rəhbərliyinin yüksək dəqiqliklə seçdiyi və uğurla həyata keçirdiyi daxili və xarici siyasət kursu nəticəsində son 10 il ərzində ümumi daxili məhsul 3,2 dəfə, o cümlədən qeyri-neft sektoru 2,6 dəfə, sənaye 2,7 dəfə, kənd təsərrüfatı 1,5 dəfə, investisiyalar 6,5 dəfə, əhalinin gəlirləri 6,5 dəfə, orta aylıq əməkhaqqı 5,5 dəfə artmışdır.

Son illərdə Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, neft sektorundan asılılığının azalması, yeni istehsal müəssisələrinin istifadəyə verilməsi, işsizliyin aradan qaldırılması və sair sosial yönümlü problemlərin həlli sahibkarlığın inkişafı ilə əhəmiyyətli dərəcədə bağlıdır.

Əhalinin gəlirlərinin artımı dünyada baş verən iqtisadi-siyasi böhran, neftin qiymətinin iki dəfədən çox aşağı düşdüyü bir şəraitdə baş vermişdir. Hesablamalara əsasən Azərbaycanda ilin əvvəlindən inflyasiyanın həcmi cəmi 3,7 faiz olmuş, qeyri-ərzaq mallarının qiymətləri və xidmət tarifləri demək olar ki, dəyişməmişdir.

Son 20 il ərzində ölkədə sahibkarlıq fəaliyyətini tənzimləyən prosedur və qaydalar xeyli liberallaşdırılmış, sahibkarlığa dövlət maliyyə yardımı mexanizmi işə salınmış, bəzi məhsullara ixrac rüsumları ləğv edilmiş, idxalda rüsumların 15 faizlik maksimal həddi müəyyənləşdirilmişdir.

Son illərdə respublikamızda qeyri-neft sektorunun, xüsusilə də regionlarda kiçik və orta sahibkarlığın inkişafı istiqamətində ayrı-ayrı regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları, iri infrastruktur layihələrinin həyata keçirilməsi, əhalinin yoxsulluq səviyyəsinin minimuma endirilməsi, kiçik və orta sahibkarlığın, xüsusən fermer təsərrüfatlarının daha da inkişaf etməsinə şərait yaratmışdır.

Müəyyənləşdirilmiş iqtisadi inkişaf strategiyası nəinki ölkəmizin inkişafında müstəsna rol oynayır, hətta bir model olaraq keçid iqtisadiyyatı ölkələrinin iqtisadi inkişafı baxımından nümunəyə çevrilməkdədir.

Azərbaycan Respublikasında sahibkarların potensial imkanlarının reallaşdırılmasına dəstək və biznesin müasir formalarının təşviq edilməsi, xarici əlaqələrin genişləndirilməsi məqsədilə 2015-ci ilin 9 ayı ərzində Sahibkarlar Konfederasiyasının bilavasitə yaxından iştirakı ilə Azərbaycanda və xarici ölkələrdə 80-dən çox biznes-forum, sərgi və konfrans keçirilmiş, eləcə də qeyri-neft məhsullarının satış bazarlarının genişləndirilməsi məqsədi ilə Amerika, Avropa, Yaxın Şərq ölkələrində, Rusiyada keçirilmiş sərgilərdə Azərbaycan sahibkarlarının iştirakı təmin edilmişdir.

"B20" çərçivəsində keçirilən panel toplantısında Kanada Ticarət Palatasının prezidenti və icraçı direktoru cənab Perrin Beatri, Braziliya Ticarət Palatasının sədri cənab Fransizko Qonzales, Bharti Şirkətlər Qrupunun Təsisçisi və sədri cənab Sunil Bharti Mittal, Çin Beynəlxal Ticarət Təşviqatı Şurasının vitse-prezidenti cənab Yu Pinq, "Sabançı Holdinq"in sədri xanım Güler Sabancı, Dünya İqtisadi Forumunun təsisçisi və icraçı direktoru doktor Klaus Şvab çıxış edərək bu il ərzində əldə olnan nailiyyətlər və Türkiyənin sədrliyi dövründə iqtisadiyyatın daha da təkmilləşməsi üzrə müzakirə olunan məsələ və tövsiyələr barədə fikir mübadiləsi apardılar.

Sonrakı mərhələdə sədrliyin təntənəli şəkildə Türkiyə tərəfindən Çinə verilməsi mərasimi keçirildi.

"B20" görüşləri çərçivəsində Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev Dünya Kicik və Orta Müəssisələr Forumunun icraçı direktoru cənab Tunc Uyanikla, Fransanın Kicik və Orta Müəssisələr Təşkilatının icraçı direktoru cənab Bernarla ayrıca görüşlər keçirərək Azərbaycan Sahibkarlar Konfederasiyasının bu təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlığı barədə məsələləri müzakirə etdi.

TOBB-un vitse-prezidenti cənab İbrahim Tuncay ilə keçirilən görüşdə isə Azərbaycan Sahibkarlar Konfederasiyası ilə TOBB arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi və yaxın gələcəkdə Türkiyənin Baş nazirinin Azərbaycana rəsmi səfəri çərçivəsində Türkiyə və Azərbaycanın işgüzar adamları arasında biznes-forumun keçirilməsi məsələləri müzakirə olundu. Bundan savayı ASK-nın prezidenti Məmməd Musayev Beynəlxalq Valyuta Fondunun vitse-prezidenti, Avropa Ticarət Palatalarının prezidenti ilə görüşlər keçirərək əməkdaşlıq imkanlarını müzakirə etdilər.

Müzakirələrin sonunda biznes sahələrinin liderlərinin iştirakı ilə keçirilən mərasimində müzakirə edilən məsələlər üzrə birgə bəyanat qəbul edilmişdir.

"Böyük İyirmilik" hökumət başçılarının sammiti çərçivəsində "L20" qrupunun sessiyasını açan və qonaqları salamlayan "L20"nin Türkiyədən rəhbəri Mahmud Arslan, "G20" çərçivəsində "L20" Zirvəsində "Bərabərsizlik, İşsizlik və Ödənişlər" başlıqlı paneldə "G20" Fəaliyyət Planlarının qiymətləndirilməsi və gələcək Prioritetlər" mövzusunda çıxış etdi.

O, bildirdi ki, "G20" çərçivəsində qəbul edilmiş qərarların hamısına böyük əhəmiyyət verilir. Bu qərarlar bizim üçün bir əsasdır. Milli səviyyədə həm həmkarlar ittifaqları ilə, həm işəgötürənlərlə və digər tərəfdən ictimaiyyətlə sıx əlaqədə olmalıyıq. Bu şəkildə dünyanın ən inkişaf etmiş və inkişaf etməkdə olan iqtisadiyyatları birləşə bilər.

Mahmud Arslan qeyd etdi ki, Həmkarlar Konfederasiyası olaraq, "G20"nin ictimai ölçüsünün iqtisadiyyat ölçüsü ilə birlikdə getməsini və bu prosesdə fəal iştirak etmək istəyirik.

Həmkarlar Konfederasiyası olaraq, "G20" əmək nazirləri yığıncaqlarında, məşğulluq komitəsi iclaslarında, "B20" və "L20" birgə deklarasiya qəbul edərək dövlət başçıları yığıncaqlarında iştirak etməyə davam edirik. 2015-ci ildən bu günə qədər "G20" çərçivəsində "L20"nin 22 yığıncağı keçirilmişdir.

Bu sessiya çərçivəsində Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti M.Musayev keçirdiyi görüşlərdə qeyd etdi ki, ilboyu müzakirələrində iştirak etdiyimiz Biznes-20 və Əmək-20 toplantılarının işi çox məhsuldar olmuşdur.

Hal-hazırda dayanıqlı iqtisadi inkişafa nail olmaq, yoxsulluğa qarşı effektiv mübarizə, əmək qabiliyyətli aktiv əhalinin məşğulluğunun təmin olunması, əmək qabiliyyəti olmayan əhalinin, uşaqların, qocaların sosial müdafiəsinin təşkili bizim qarşımızda duran başlıca məqsədlərdir.

Azərbaycan Respublikası müstəqillik qazandığı ilk illərdən etibarən müharibə kimi böyük bir sosial bəla ilə üzləşmiş, Ermənistanın ölkəmizə təcavüzü və apardığı etnik təmizləmə siyasəti nəticəsində bir milyona qədər soydaşımız qaçqın və məcburi köçkün həyatı keçirərək öz torpaqlarından didərgin düşmüşlər. O dövrdə Azərbaycan siyasi və iqtisadi cəhətdən nə qədər çətin vəziyyətdə olsa da qaçqın və məcburi köçkünlərin, eləcə də bütün ölkə əhalisinin sosial təminat hüququnu həyata keçirmişdir. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə aparılan uğurlu iqtisadi siyasət sosial sferaya da öz töhfəsini vermiş, yoxsulluğun və işsizliyin azaldılması sahəsində nailiyyətlər əldə edilmişdir.

Son illərdə Azərbaycan bütün sahələrdə sürətli inkişafa nail olmuşdur. Regionların sosial-iqtisadi inkişafı, yoxsulluğun azaldılması və dayanıqlı inkişafın təmin edilməsi, Məşğulluq Konsepsiyası kimi uzunmüddətli dövlət proqramlarının icrası nəticəsində yoxsulluğun və işsizliyin səviyyəsi 5 faizdən aşağı düşmüşdür. Bu iqtisadi cəhətdən inkişaf etmiş Qərb dövlətləri üçün çox yüksək göstəricidir. Aparılan uğurlu siyasət nəticəsində dünya ölkələrinin çoxu beynəlxalq maliyyə böhranından əziyyət çəkərkən Azərbaycanda insanların rifah səviyyəsi dəfələrlə yüksəlmiş, orta aylıq əməkhaqqı, minimum əməkhaqqı, orta pensiya miqdarı kimi göstəricilərə görə region ölkələrini qabaqlamışdır.

Azərbaycan Sahibkarlar Konfederasiyası da ölkə sahibkarlarını təmsil edən bir təşkilat olaraq həm əldə etdiyimiz uğurları dəyərləndirir, həm də müasir çağırışları dərindən təhlil edir. Hazırda ölkəmizin iqtisadi siyasətindən danışarkən qeyri-neft sektoru məhsullarının ixracının təşviqi prioritet istiqamət kimi qarşımızda durur. Dövlətin ixracyönümlü qeyri-neft sektorunun inkişafını bu şəkildə dəstəkləməsi, elə sahibkarların dəstəklənməsi kimi anlaşılmalıdır. Çünki son illərin tendensiyası iqtisadiyyatda qeyri-neft sektorunun, özəl sektorun payının artması istiqamətindədir. Qeyri-neft sektorunun inkişafı isə sənayenin, kənd təsərrüfatının, bank-maliyyə sisteminin, turizmin, digər xidmət və ticarət sahələrinin inkişafı deməkdir. Bu inkişaf neftin düşən qiyməti fonunda ölkəmizin makroiqtisadi sabitliyini təmin edəcək, xarici ticarət saldosunu müsbət saxlayacaqdır.

Sənayenin, kənd təsərrüfatının, xidmət sektorunun, ticarətin inkişafı isə yeni iş yerləri, yeni biznes fürsətləri deməkdir. Yuxarıda qeyd etdiyimiz sürətli inkişafın fonunda əldə olunan yüksək məşğulluq səviyyəsi göstərir ki, makroiqtisadi siyasətlə, iqtisadi inkişafla əhalinin məşğulluğu birbaşa əlaqəlidir. Bundan sonra da bu məntiqi bağlılığın yüksələn xətt üzrə inkişafını təmin etmək üçün sahibkarların üzərinə məsul vəzifələr düşür. Belə ki, sahibkarlığın inkişafı üçün yaradılan şəraitdən biznes gərək maksimum effektiv şəkildə yararlansın, iqtisadiyyatımızın diversifikasiyası prosesində yaxından iştirak etsin, əhalini yeni iş imkanları ilə təmin etsin.

Bu gün ölkəmizdə sahibkarlar yalnız gəlir əldə etmək, vergi ödəmək və məşğulluğun təmini prosesində iştirak etməklə kifayətlənmirlər. Onlar bütövlükdə cəmiyyətin inkişafı prosesində öz məsuliyyətlərini dərk edir, korporativ sosial məsuliyyət layihələri həyata keçirir, insan hüquqları, əmək standartları və ekoloji həssaslıqlar mövzusunda çox fəaldırlar.

Konfederasiya olaraq biz də əmək standartlarına, əmək təhlükəsizliyinə əməl olunması sahəsində geniş maarifçilik işi ilə məşğuluq. Eləcə də insan və uşaq əməyinin ən pis formalarına, insan alverinə qarşı mübarizədə daim müvafiq dövlət orqanları ilə əməkdaşlıq edirik. Dayanıqlı inkişafın təmininə yönəldilmiş addımlar, korporativ sosial məsuliyyət layihələri, hesabatlılıq, insan hüquq və azadlıqlarına hörmətlə yanaşılması kimi məsələlər Konfederasiya tərəfindən təşviq olunur. Azərbaycan biznesinin həm işçilərinin əmək və digər əlaqədar hüquqlarının təminatı, həmçinin də daha keyfiyyətli cəmiyyət quruculuğu sahəsində gördüyü işlər göz önündədir, lakin biz yenə də hazırkı səviyyə ilə kifayətlənmək niyyətində deyilik. Bu səbəbdən də həm ölkəmizin qarşısında duran problemlərin, həm də bütün bəşəriyyətin üzləşdiyi çətinliklərin öhdəsindən gəlmək üçün daim həll yolları üzərində çalışırıq.

Dünyada yoxsulluğun, qaçqın və məcburi köçkün probleminin bugünkü səviyyəsi hamı kimi bizi də narahat edir. Bu hallara qarşı mübarizə isə yalnız bütün dünya dövlətləri tərəfindən birlikdə aparıldıqda uğurla nəticələnə bilər. Bu baxımdan hər kəsi birgə əməkdaşlığa, qarşılıqlı yardımlaşmaya dəvət edirik.

Tədbirlərin sonunda "L20"yə (Əmək-20) üzv dövlətlərinin Həmkarlar Konfederasiyalarının və Əmək nazirlərinin iştirakı ilə keçirilən mərasimində müzakirə edilən məsələlər üzrə birgə bəyanat qəbul edildi.

*Bəhman MİRZƏYEV,*
*"Azərbaycan"*